*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 sentyabr 2015-ci il № 71 (1987) Qiyməti 25 qəpik


## Rəsmi xronika

✓*Sentyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Xətai rayonundakı 5 nömrəli Bakı Peşə Liseyində həyata keçirilən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub.*

*Dövlətimizin başçısı liseydə yaradılan şəraitlə yaxından tanış oldu. Bildirildi ki, liseydə 41 kabinet yaradılıb. Bunlardan 7-si fənn kabineti, 3-ü laboratoriya, 23-ü isə ümumtəhsil fənn kabinetidir. Təhsil ocağında 8 tədris emalatxanası var.*

*Beş nömrəli Bakı Peşə Liseyində istehsalat təlim dərslərini yüksək səviyyədə həyata keçirmək üçün bütün ixtisaslara uyğun emalatxanalar yaradılıb və lazımi avadanlıqla təchiz olunub. Təhsil ocağının geniş akt zalında isə həm rayon, həm də respublika əhəmiyyətli tədbirlər keçirmək mümkündür.*

* * *

✓*Sentyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məktəb-liseydə yaradılan şəraitlə tanış olub.*

*Dövlətimizin başçısına burada görülən təmir və yenidənqurma işləri barədə məlumat verildi.*

*Bildirildi ki, bu təhsil ocağı 1981-ci ildə təsis olunub və elə həmin ildən bu binada fəaliyyətə başlayıb. Məktəb-liseyin binasında indiyədək əsaslı təmir işləri aparılmayıb. Binada yenidənqurma işləri yüksək səviyyədə həyata keçirilib.*

*Dövlətimizin başçısının təhsilin inkişafına göstərdiyi diqqət və qayğının nəticəsi olaraq son illərdə müasir məktəb binaları tikilir, təhsil müəssisələri üçün yeni korpuslar inşa olunur. Bu proses təkcə paytaxtla məhdudlaşmayıb, bölgələri də əhatə edib. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülüb. Heydər Əliyev Fondu da dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına güclü dəstək verib.*

* * *

✓*Sentyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı sərnişin stansiyasında Bakı-Sumqayıt marşrutu ilə hərəkət edən ilk sərnişin qatarının yola salınması mərasimində iştirak edib.*

*Yeni qatarın ilk sərnişin bileti xatirə olaraq dövlətimizin başçısına təqdim edildi.*

*Prezident İlham Əliyev Bakı-Sumqayıt marşrutu ilə hərəkət edən ilk sərnişin qatarının yola salınmasını bildirən rəmzi lenti kəsdi və zəngi vurdu.*

*Bu marşrut xətti üzrə sərnişinlərin rahat, sürətli və təhlükəsiz daşınması üçün "Stadler Rail Group" şirkətinin sürətli elektrik qatarları istismara verilib. Dörd vaqondan ibarət olan elektrik qatarlarının hər birinin ümumi sərnişin tutumu 919 nəfər, oturacaq yerlərinin sayı isə 396-dır. İkimərtəbəli elektrik qatarlarında biznes-sinfə aid 84 oturacaq da var.*

*Sumqayıtdan Bakıya və əks istiqamətə qatarların hərəkəti müxtəlif intervallarla həyata keçiriləcək.*

**AZƏRTAC-ın materialları əsasında**

## General-polkovnik Zakir HƏSƏNOV:

# Azərbaycan dövləti daim öz ordusuna qayğı göstərərək gücünü gündən-günə artırır



***Ötən həftə Silahlı Qüvvələrimiz üçün olduqca əlamətdar hadisə ilə yadda qaldı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə sentyabrın 6-dan 13-dək Silahlı Qüvvələrin bütün qoşun növlərinin iştirakı ilə Komanda Qərargah Hərbi Oyunları keçirildi. Oyunların məqsədi hərbi hissə və bölmələrin döyüşə hazırolma və döyüş qabiliyyətinin yoxlanılmasından ibarət idi.***

Məlum olduğu kimi, ölkəmizdə dövlət rəhbərliyi tərəfindən ordu quruculuğu prioritet vəzifə elan edilib. Silahlı Qüvvələrimizin ehtiyacları üçün dövlət büdcəsindən yetərincə maliyyə vəsaiti ayrılır. Bir faktı demək kifayətdir ki, Azərbaycanda 2015-ci il üçün nəzərdə tutulmuş hərbi xərclər Ermənistanın ümumilikdə dövlət büdcəsindən 2 dəfə çoxdur. Ötən illər ərzində ordumuzun maddi-texniki təchizatı xeyli yüksəlib, ayrı-ayrı qoşun növləri üçün müasir silah-sursatlar alınıb. Ordumuzun şəxsi heyətinin həm peşəkarlığı, həm də mənəvi-psixoloji hazırlığı yüksəlib, döyüş ruhu möhkəmlənib.

Ötən il mötəbər "Global Firepower" təşkilatının açıqladığı hesabatda dünyanın 106 ölkəsinə məxsus orduların göstəriciləri öz əksini tapmışdı. Azərbaycan Silahlı Qüvvələri öz döyüş potensialına görə, qonşu Gürcüstanın və işğalçı Ermənistanın yer almadığı reytinq siyahısında 50-ci yeri tutub. Bu bir daha ordumuzun regionda ən qüdrətli güc strukturu olduğunu göstərir.

Silahlı Qüvvələrimizə dövlət rəhbərliyi səviyyəsində bu qədər diqqət yetirilməsində, təbii ki, başlıca məqsəd ölkəmizin müdafiə qüdrətinin artırılmasıdır. Eyni zamanda Azərbaycan Ordusunun qarşısında daha bir taleyüklü məsələ dayanır. Ölkəmizin əzəli torpaqlarının 20 faizi Ermənistan tərəfindən havadarlarının bilavasitə dəstəyilə işğal edilib və bu torpaqları, Azərbaycanın incisi olan Dağlıq Qarabağı düşmən tapdağından azad etmək Silahlı Qüvvələrimizin başlıca vəzifəsidir.

Yanvarın 10-da Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsilə bağlı fikirlərini də bildirərək, dövlətimizin təhlükəsizliyinin təminatı olan Silahlı Qüvvələrimizə ölkə rəhbərliyi tərəfindən göstərilən qayğıya toxunmuşdu. Prezident İlham Əliyev bir daha vurğulamışdı: "Biz bu gün öz imkanlarımızı artıraraq daha da güclü orduya malik oluruq və bu ordu istənilən vaxtda istənilən vəzifəni icra edə bilər".

Təsadüfi deyil ki, döyüş hazırlığı planına əsasən, peşəkarlığın daha da möhkəmləndirilməsi bu il bütün qoşun növlərində müəyyən edilmiş əsas məqsəddir. Hərbi hissə və birləşmələrdə şəxsi heyətin ixtisas və taktiki ustalığını yüksəltmək, hərbi intizamı daha da möhkəmləndirmək, hərbi kollektivlərdə mənəvi-psixoloji hazırlığı, döyüş ruhunu yüksəltmək Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən qoşunlarımızın qarşısına bir vəzifə kimi qoyulub.

Silahlı Qüvvələrimizin döyüş potensialının artırılmasında hərbi təlimlərin böyük əhəmiyyəti var. Əslində, böyük sərkərdələr təlim meydanını təsadüfən hərbi bölmələrin universiteti adlandırmayıblar. Ordumuzun hərbi təlimlərlə bağlı qrafiki yetərincə zəngindir. Bu yaxınlarda Hərbi Hava Qüvvələrimizin Türkiyədən gəlmiş həmkarları ilə birgə keçirdikləri "TurAz Qartalı - 2015" taktiki təlimlər uğurla yekunlaşdı. Sonra bütün qoşun növlərinin iştirakı ilə Komanda Qərargah Hərbi Oyunlarına start verildi.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına görə, təlimlərə ordumuzun böyük bir qismi - 65 min nəfərədək şəxsi heyət, 700-dək zirehli texnika, 500-dən çox raket və artilleriya qoşunlarının qurğusu, Hərbi Hava Qüvvələrinin 40-dək təyyarəsi və 50-dək helikopteri, Hərbi Dəniz Qüvvələrinin 20-dək gəmi və kateri, eləcə də Xüsusi Təyinatlı Qüvvələrin və qruplaşmaların havadan mühafizəsi məqsədilə qoşunların hava hücumundan müdafiə bölmələri, eləcə də müasir hava hücumundan müdafiə kompleksləri ilə silahlanmış zenit-raket birləşmələri cəlb edilmişdi.

Komanda Qərargah Hərbi Oyunlarında qoşunların döyüşə tam hazırlıq vəziyyətinə gətirilməsi, qruplaşması, müdafiənin aparılması, əks-hücum əməliyyatının hazırlanması və keçirilməsi, eləcə də şərti düşmənin mühasirəyə alınaraq darmadağın edilməsi kimi tapşırıqlar yerinə yetirilib.

Məlum olduğu kimi, müasir hərbi əməliyyatlar ordu hissələrindən yüksək təşkilatlanma və çevik idarəetmə, mobillik, yetərincə fiziki və mənəvi güc tələb edir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bilavasitə rəhbərliyilə Hərbi Oyunların birinci mərhələsində qoşunların və idarəetmə məntəqələrinin əməliyyat təyinatlı yerdəyişməsi müvəffəqiyyətlə icra edildi. Qoşunlar planlı şəkildə müəyyən edilmiş marşrutlar üzrə hərəkət edərək daimi dislokasiya yerlərindən təlimlərin keçirildiyi cəmləşmə rayonlarına toplandı. Bu zaman Hava Hücumundan Müdafiə Qoşunları tərəfindən kolonların hərəkətinin etibarlı mühafizəsi təşkil edilmişdi. Eyni zamanda, döyüş aviasiyası ehtiyat aerodromlara köçürülmüş, Raket və Artilleriya Qoşunlarının birlik və hissələri müvəqqəti atəş və start mövqelərinə çıxarılmışdı.

Müharibə şəraitinə uyğun yaradılmış komanda idarəetmə məntəqələrinə və təlim nöqtələrinə baş çəkən Müdafiə naziri şəxsi heyətin, silah-sursatın və döyüş texnikasının təlimlərdə rolu, eləcə də tapşırıq və sərəncamların dəqiq icra olunması ilə bağlı müvafiq göstərişlər verib.

Hazırkı irimiqyaslı təlimlərin bir önəmi də ondadır ki, birləşmə və hissələrin səfərbərlik tapşırıqlarının yerinə yetirilməsi məqsədilə təlim toplanışına ehtiyatdan 6 min nəfərədək hərbi vəzifəli çağırılmışdı.

Müdafiə naziri ehtiyatdan çağırılan şəxsi heyətlə görüşü zamanı bildirdi: "İlk növbədə Vətən, xalq qarşısında borcunuzu dərk edib çağırışla gəldiyinizə görə sizə minnətdarlığımı bildirirəm. 20 ildən artıqdır ki, torpaqlarımız işğal altındadır və sülh danışıqları heç bir nəticə vermir.

Azərbaycan dövləti daim öz ordusuna qayğı göstərərək gücünü gündən-günə artırır. Düşmənimiz birmənalı şəkildə bilməlidir ki, biz torpaqlarımızın işğalı ilə heç vaxt barışmayacağıq. Danışıqlar bir nəticə verməzsə, gücümüzü göstərərək torpaqlarımızı işğaldan azad edəcəyik".

Təlimin əsas mərhələsində birləşmə və hərbi hissələr qəflətən döyüş hazırlığı vəziyyətinə gətirilərək təyin olunmuş hədlər istiqamətində hərəkət etdilər, şərti düşmənin hərəkət edən qüvvə və vasitələrini məhv etmək üçün yuxarı komandanlığın əmrilə aviasiya və artilleriya zərbələri endirildi. Sonra hissə və bölmələrimiz əks-hücum əməliyyatının aparılması, ikinci eşelonun hücuma yeridilməsi və taktiki hava desantının düşmən dərinliyinə endirilməsi kimi tapşırıqları icra etdilər.

Komanda Qərargah Hərbi Oyunlarının son mərhələsində təlim mərkəzləri və poliqonlarda motoatıcı və tank bölmələrinin, raket və artilleriya qurğularının, zenit-raket komplekslərinin, təyyarə və helikopterlərin döyüş atışları icra olundu, praktiki raket buraxılışları və bombalama həyata keçirildi. Təbii ki, bütün bunlar ayrı-ayrı qoşun bölmələrinin döyüş təcrübəsi qazanmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına öz müsbət təsirini göstərdi.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə nazirliyin rəhbər heyəti, birlik və birləşmələrin komandir və qərargah rəisləri, eləcə də irimiqyaslı təlimlərə cəlb olunan məsul zabitlərin iştirakı ilə keçirilən müşavirədə Komanda Qərargah Hərbi Oyunlarına yekun vuruldu.

Müdafiə naziri praktiki atışlarla icra olunan irimiqyaslı təlimlərin nəticələrini təhlil edərək Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən Komanda Qərargah Hərbi Oyunlarında qarşıya qoyulan vəzifələrin məharətlə yerinə yetirildiyini vurğuladı. Nazir bütün qoşun növlərindən cəlb edilmiş qüvvələr, xüsusi təyinatlılar, təminat vasitələri tərəfindən döyüş şəraitinə maksimum uyğunlaşdırılmış vəziyyətdə təlim-döyüş tapşırıqlarının tələb olunan səviyyədə icra olunduğunu qeyd etdi, həmçinin, döyüş atışlarının icrası, manevrlərin həyata keçirilməsi zamanı komandirlərin və şəxsi heyətin təşəbbüskarlığını yüksək qiymətləndirdi.

Təbii ki, Komanda Qərargah Hərbi Oyunları ordumuzun gücləndirilməsində, şəxsi heyətin praktik vərdişlərinin yüksəldilməsində mühüm amil oldu. Silahlı Qüvvələrimizin gücləndirilməsi Azərbaycanın gücləndirilməsi deməkdir. Qüdrətli Azərbaycan isə münasib siyasi-hərbi zəmin yarandıqda işğal altında olan torpaqlarımızın azad edilməsində qətiyyətli sözünü deyəcəkdir.

**"Azərbaycan Ordusu"**

# Cəbhəboyu zonada yerləşən rayonların icra hakimiyyəti başçıları ilə birgə müşavirə keçirilib

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, sentyabrın 12-də Komanda Qərargah Hərbi Oyunlarının keçirildiyi Müdafiə Nazirliyi ilə cəbhəboyu zonada yerləşən rayonların icra hakimiyyəti başçılarının səhra şəraitində birgə müşavirəsi keçirilib.***



"Cəbhəboyu zonada yerləşən hərbi hissə komandanlıqları və yerli icra hakimiyyəti orqanlarının müdafiə və təhlükəsizlik məsələləri üzrə qarşılıqlı əlaqələrinin təşkili" mövzusunda keçirilən toplantıda mövcud vəziyyət, qanunvericilik və digər rəhbəredici sənədlərlə tənzimlənən bəzi əsas tələblər, müharibə şəraitində qurumların məsuliyyəti, vəzifələri, tapşırıqları və digər vacib məsələlər müzakirə edilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov müşavirə iştirakçılarını salamlayaraq, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında xalq ilə ordunun birliyinin daha da möhkəmləndiyini xüsusi vurğulayaraq uğurla davam edən irimiqyaslı təlimlərin gedişi barədə ətraflı məlumat verib.

Müşavirədə cəbhədəki real vəziyyət təhlil edilərək gərginliyin artması zamanı yarana biləcək təhdid və riskləri qabaqlamaq məqsədilə müəyyən problemlər və onların həllinin tapılması istiqamətində birgə müzakirənin keçirilməsinin zəruriliyi vurğulanıb. Qeyd edilib ki, şəxsi heyətin və cəbhəboyu zonada yaşayan əhalinin, sənaye, təsərrüfat, o cümlədən kommunikasiya qovşaqlarının və digər əhəmiyyətli obyektlərin mühafizəsi, qorunması, müdafiəsi və təhlükəsizliyinin təmin olunması qarşıda duran əsas vəzifələrdəndir.

Son vaxtlar təmas xəttində vəziyyətin gərginləşməsinə baxmayaraq, Silahlı Qüvvələrin şəxsi heyətinin düşmən təxribatlarının qarşısını alaraq ona ciddi zərbələr vurması, eləcə də ordumuza hər zaman dayaq olan yerli əhalinin fədakarlıq və dözüm nümayiş etdirməsi təqdirəlayiq hal kimi qiymətləndirilib.

Birlik komandirləri yerli icra strukturları ilə sıx əlaqələr yaratdıqlarından, bu işin şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsindəki əhəmiyyətindən, eləcə də həlli vacib olan bəzi problemlərdən danışaraq bunların tezliklə aradan qaldırılması yollarını müzakirə ediblər.

Müşavirədə Füzuli, Daşkəsən, Ağdam, Tərtər, Beyləqan, Ağcabədi, Şəmkir, Xocavənd, Gədəbəy və digər rayon icra hakimiyyəti başçıları çıxış edərək rayon ictimaiyyətinin ordu ilə əlaqələrindən bəhs edib, bundan sonra da müdafiə və təhlükəsizlik tədbirlərinin təşkilində yaxından iştirak edəcəklərini, Azərbaycan Prezidentinin tələb və göstərişlərini layiqincə yerinə yetirəcəklərini və hər zaman ordu ilə birlikdə Ali Baş Komandanın əmrlərinə hazır olacaqlarını bildiriblər.

Müdafiə naziri müşavirədə iştirak etdiklərinə görə icra başçılarına minnətdarlıq edərək bu kimi tədbirlərin davamlı olacağına əminliyini bildirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Komanda Qərargah Hərbi Oyunları sona çatıb



***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə nazirliyin və Silahlı Qüvvələrin rəhbər heyəti, birlik və birləşmələrin komandir və qərargah rəisləri, eləcə də irimiqyaslı təlimlərə cəlb olunan məsul zabitlərin iştirakı ilə Komanda Qərargah Hərbi Oyunlarının yekunlarına dair müşavirə keçirilib.***

Müdafiə naziri praktiki atışlarla icra olunan irimiqyaslı təlimlərin nəticələrini təhlil edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən Komanda Qərargah Hərbi Oyunlarında qarşıya qoyulan məqsəd və vəzifələr məharətlə yerinə yetirilib. Nazir bütün qoşun növ və qismləri, xüsusi təyinatlılar, təminat vasitələri tərəfindən döyüş şəraitinə maksimal uyğunlaşdırılmış vəziyyətdə imkanlarını praktiki olaraq tətbiq edərək təlim-döyüş tapşırıqlarının tələb olunan səviyyədə icra olunduğunu qeyd edib, həmçinin, döyüş atışlarının icrası, manevrlərin həyata keçirilməsi zamanı komandirlərin və şəxsi heyətin təşəbbüskarlığını yüksək qiymətləndirib.

Müdafiə naziri düşmənlə çətin radioelektron mübarizə şəraitində, qarşılıqlı əlaqəli fəaliyyətin təşkilinə və bölmələrin dəqiq idarə edilməsinə xüsusi diqqət yönəldilməsini və gələcəkdə də bu istiqamətdə səmərəli tədbirlərin görülməsini tələb edib.

Eyni zamanda, nazir hərbi əməliyyatlar zamanı mülki əhalinin, hərbi və mülki obyektlərin, təsərrüfat sahələrinin, kommunikasiyaların və digər həyati əhəmiyyətli sahələrin mühafizəsində, həmçinin, səfərbərlik ehtiyatlarının vaxtında toplanmasında, qəbulunda yerli icra orqanları ilə qarşılıqlı əlaqələrin daha sıx olmasının vacibliyini də diqqətə çatdırıb.

Şəxsi heyətin döyüşə hazırolma və döyüş qabiliyyətini, peşəkarlığını yüksək qiymətləndirən Müdafiə naziri belə təlimlərin keçirilməsinin əhəmiyyətini bir daha diqqətə çatdıraraq komandir-rəis heyəti qarşısında müvafiq tapşırıqlar qoyub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri AŞPA-nın məruzəçisi ilə görüşüb

***Sentyabrın 15-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Avropa Şurası Parlament Assambleyasının (AŞPA) siyasi işlər və demokratiya komitəsinin Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçisi Robert Uolterin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***



Görüşdə Müdafiə naziri regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və bunun nəticəsində 20 ildən artıqdır ki, öz doğma yurd-yuvalarından didərgin düşən bir milyondan çox qaçqın və məcburi köçkünün problemləri barədə ətraflı məlumat verib. General-polkovnik Zakir Həsənov beynəlxalq hüququn normaları və prinsiplərinin Ermənistan tərəfindən kobudcasına pozulduğunu vurğulayaraq qoşunların təmas xəttində gərginliyin artmasının səbəbləri barədə danışıb və qonaqları maraqlandıran bir sıra sualları cavablandırıb.

Münaqişə bölgəsində gərginliyin artması ilə bağlı hesabat hazırlamaq məqsədilə ilin əvvəlində Azərbaycana səfərini xatırladan R.Uolterin vəziyyətlə yerində yaxından tanış olmaq üçün cəbhəboyu zonaya və xüsusilə təmas xəttinə səfər etmək xahişi də müsbət qarşılanıb.

Müdafiə naziri R.Uolterin rəhbərlik etdiyi nümayəndə heyətinin təhlükəsizliyinin təmin olunmaqla təmas xəttinə səfəri, yerli əhali və şəxsi heyətlə görüşlərin keçirilməsi ilə əlaqədar müvafiq tapşırıqlar verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Cəbhə bölgəsindən reportaj*

# Atəş səsləri tez-tez eşidilir

***Hər dəfə cəbhə bölgəsində yerləşən hərbi hissəyə gedəndə, torpaqlarımıza keşik çəkən oğulları görəndə ürəyim dağa dönür. Yenə yollardayam, həmişəki kimi cəbhə bölgəsində yerləşən hərbi hissəyə, yurdumuzu qoruyan zabit və əsgərlərin yanına gedirəm. Yenə ürəyim dağa dönəcək. Dağların, dərələrin qoynundan keçən yollarla səngərlərə tələsirəm. Mənzil başına tez çatmağa, əsgərlərlə görüşməyə can atıram.***



Son günlər düşmən atəşkəs rejimini tez-tez pozur. Cəbhə bölgəsində yerləşən yaşayış məntəqələrini, mülki adamları atəşə tutur. Zabit və əsgərlərimiz həmişəki kimi torpaqlarımızın keşiyində ayıq-sayıq dayanırlar. Erməni işğalçıları atəşkəs rejimini pozanda hərbçilərimiz tərəfindən dəqiq atəş zərbələri ilə susdurulurlar. Ağır itkiyə məruz qalan düşmən geriyə - mövqelərinə çəkilir. Qəsbkarlar hiss edirlər ki, qarşılarında dayanan Azərbaycan zabiti, Azərbaycan əsgəri ondan qat-qat güclüdür.

Arada yaranmış boş vaxtdan yararlanıb mənimlə ön xəttə gedən mayor Kənan Həziyevlə söhbət edib, xidmət yolu ilə tanış oldum. Öyrəndim ki, o, xeyli müddətdir ordu sıralarındadır. Xidmətinin bir hissəsi Murovdağda keçib. İndi xidmətini bu bölgədə davam etdirir. Onun məsuliyyətli və diqqətli zabit olduğu hər addımda hiss edilir.

Dağların, dərələrin belinə dolanan yollarla xeyli irəli gedib ön xətdə yerləşən tabora çatdıq. Burada atəş səsləri tez-tez eşidilir. İndi arxayınlıqla addımladığımız bu yaşayış məntəqəsi bir müddət erməni işğalçılarının nəzarətinə keçib. Yaranmış fürsətdən istifadə edən qəsbkarlar kəndi viran qoyub, hər yeri vəhşicəsinə dağıdıb, evləri yerlə yeksan ediblər. Ordumuz kəndi azad etdikdən sonra sakinlər yavaş-yavaş doğma ocaqlarına qayıdıb, həyat əvvəlki axarına düşüb. Nə qədər bərpa işləri aparılsa da, ətrafda erməni vəhşiliyinin izləri hələ də qalmaqdadır. Düşünürəm ki, bu izlər yerdən, torpaqdan silinsə də, ürəklərdən heç vaxt silinməyəcək. Müharibənin izləri - gördüyümüz ürəkdağlayan səhnələr həm kənd sakinlərində, həm də zabit və əsgərlərdə erməni qəsbkarlarına nifrət hissi oyadır. Törətdikləri vəhşiliklərə görə düşmənə nifrətlər yağıdıra-yağdıra irəli - səngərə tələsirik...

Təlim meydanında zabit və əsgərlər məşğələ keçir, təcrübələrini artırır. Mayor Kənan Həziyev onlarla da görüşüb söhbət etməyi məsləhət gördü. Əsgərlər zabitin tapşırığını yerinə yetirərək döyüş vərdişlərinə yiyələnirlər. Onların cəld və çevik hərəkətləri bizdə xoş təəssüratlar oyadır.

- Əsgərlərimizin döyüş hazırlığının yüksək səviyyədə olmasına çalışırıq, - baş leytenant Famid Rəhimov dedi. - Şəxsi heyət yaxşı dərk edir ki, döyüşdə qələbə çalmaq üçün məşğələlər keçməli, hərbi bilik və vərdişlərə mükəmməl yiyələnməlidir. Təlim və məşğələlərdən yorulmayan əsgərlərimizi qarşıda uğurlar gözləyir. Şəxsi heyət qarşıya qoyulan tapşırıqları peşəkarlıqla müntəzəm yerinə yetirir. Atəşkəs rejimini pozan erməni işğalçılarına layiqli cavab verərək onları dəqiq atəş zərbələri ilə susdururlar.

Təlimdə fasilə yarananda şəxsi heyətlə görüşüb söhbət etdim. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Samir Məmmədov, əsgərlərdən Əlövsət Qasımov, İlqar Yusifov, Fərahim Novruzov, Elşən Ramazanov, Samiq Sultanov, Məlik Babayev və başqaları hərbi bilikləri böyük maraqla öyrəndiklərini dedilər. Onlar hazırlıqlı olmaq üçün döyüş vərdişlərini dərindən mənimsəməyə çalışırlar. Yaxşı bilirlər ki, çalışqanlıq həmişə uğur gətirir.

- Torpaqlarımızı erməni işğalçılarından azad etmək başlıca məqsədimizdir, - deyə əsgər Əlövsət Qasımov söhbətə başladı. - Bunun üçün daim məşqlər edir, yeni döyüş vərdişlərinə yiyələnirik. Hər addımda, hər işdə düşməndən üstün olmağa çalışırıq. Xalqımız bu gün torpaqlarımızı qorumağı, onu düşməndən azad etməyi bizə tapşırıb. Biz yüksək hazırlığımızla bu tapşırıqların öhdəsindən layiqincə gələcəyik. Xalqın etimadını doğruldacağıq.



Zabit və əsgərlərdən xoş təəssüratlarla ayrıldıq. Bu görüş ovqatımıza ovqat qatdı. Azərbaycan əsgərini daha bacarıqlı, daha güclü gördük. Elə bu ovqatla da növbəti yazılarımın qəhrəmanları olacaq zabit və əsgərlərlə görüşmək üçün yolumuza davam edib başqa səngərlərə getdik...

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Bakıda "Böhranlara cavab əməliyyatlarında NATO-nun psixoloji əməliyyatları" mövzusunda təlim kursu keçirilir

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2015-ci il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, cari ilin 14-17 sentyabr tarixlərində Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində NATO-nun Brunssumda yerləşən Birləşmiş Qüvvələr Komandanlığının Mobil Təlim Qrupu tərəfindən "Böhranlara cavab əməliyyatlarında NATO-nun psixoloji əməliyyatları" mövzusunda təlim kursu keçirilir.

Kurs müddətində NATO-nun Mobil Təlim Qrupu tərəfindən iştirakçılara "NATO-da hərbi tərəfdaşlıq", "NATO-nun hərbi siyasəti", "Strateji kommunikasiya", "İctimai əlaqələr", "İnformasiya əməliyyatları doktrinası", "Psixoloji əməliyyatlar", "İnformasiyanın təhlili" və s. mövzular barədə məlumatlar verilir.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Sentyabrın 14-dən noyabrın 26-dək Buxarest şəhərində (Rumıniya) intensiv ingilis dili kursu, sentyabrın 16-dan 25-dək Qori şəhərində (Gürcüstan) Gender təlimi üçün təlimatçı kursu, sentyabrın 17-dən noyabrın 27-dək Liptovskiy Mikulaş şəhərində (Slovakiya) 15-ci beynəlxalq qərargah zabitləri kursu keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***15 sentyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 101 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan və Dovex kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı və Kəmərli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Novruzlu, Sarıcalı, Kəngərli, Yusifcanlı, Şıxlar, Mərzili, Cəvahirli, Şuraabad, Qaraqaşlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Əbdürrəhmanlı, Aşağı Seyidəhmədli, Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 151 atəş zərbəsi endirib.

## Ermənistan Silahlı Qüvvələrinin növbəti pilotsuz uçan aparatı məhv edilib

***15 sentyabr 2015-ci il.***

Cəbhənin Ağdam rayonu istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus (ilkin ehtimala görə "Krunk-25" tipli) taktiki pilotsuz uçan aparat (PUA) Hərbi Hava Qüvvələrimizin hava hücumundan müdafiə bölmələri tərəfindən aşkar olunaraq atəş nəticəsində məhv edilib.

*Xalq və ordu birdir*

# Ağcabədi rayonunda hərbi vətənpərvərlik mövzusunda təbdir keçirilib



***Komanda Qərargah Hərbi Oyunları başladığı ilk gündən Ağcabədi rayonunda "Ordu xalqla əl-ələ" devizi altında vətənpərvərlik tədbirlərinə start verilib. Rayonun idarə və təşkilatlarında, mədəni-maarif ocaqlarında silsilə tədbirlər həyata keçirilir, Müdafiə Nazirliyinin məlumatları əsasında iri-miqyaslı təlimlərin gedişi barədə rayon sakinlərinə vaxtaşırı məlumatlar verilir, ehtiyatda olan hərbi vəzifəlilərin hər an təlimlərə qoşulmaq ehtimalı nəzərə alınaraq onlarla məqsədyönlü iş aparılır, ordu hissələrinin şəxsi heyəti ilə mütəmadi görüşlər keçirilir, şəhid ailələri, sağlamlıqlarını Vətənin müdafiəsi zamanı itirmiş döyüşçülər daim diqqətdə saxlanılır, veteranların gənclərin vətənpərvərlik tərbiyəsində fəallığı daha da artırılır.***

Heydər Əliyev parkında keçirilən izdihamlı toplantı ağcabədililərin öz ordusuna sevgi və məhəbbətinin Vətənə, xalqa, dövlətə, Ali Baş Komandanına sədaqətinin təntənəsinin nümayişinə çevrilib.

Əvvəlcə Ağcabədi rayon İcra Hakimiyyətinin rəhbərliyi, Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Ağcabədililərin Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olduqları hiss olunur. Ordu ilə xalqın birliyini tərənnüm edən şüar və plakatlarla tərtib olunmuş yay teatrına toplaşmış yüzlərlə rayon sakini Azərbaycan Respublikasının Dövlət himnini ifa ediblər.

Toplantıda Azərbaycanın Milli Qəhrəmanı Etibar İsmayılovun qardaşı Vəfadar İsmayılov çıxış edərək digər qardaşları ilə birlikdə işğal olunmuş torpaqlarımızı azad etmək üçün müqəddəs savaşa hazır olduqlarını bildirib.

"Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi" Ağcabədi filialının sədri İsmayıl Məhərrəmov, 1993-cü ildə Azərbaycanın ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla həlak olmuş şəhid Miryaqub Kərimovun oğlu Vidadi Kərimov da Milli Qəhrəmanın qardaşının çağırışına səs verərək günü bu gün Azərbaycan Ordusu sıralarında zəfər yürüşünə qoşulmaq arzusunda olduğunu toplantı iştirakçılarının nəzərinə çatdırıb.

Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani, polkovnik Elçin Kərimov və gənc əsgər Elməddin Məmmədovun çıxışlarını ağcabədililər alqışlarla qarşılayıb, Azərbaycan Ordusunun bugünkü qüdrətindən, Azərbaycan əsgərinin mərdliyindən, cəsarətindən qürur duyduqlarını şüarlarla səsləndiriblər.

Tədbirə qatılmış şəhid valideynləri hörmət və ehtiramla qarşılanmış, şəhid Niyaməddin Əmiraslanovun anası Çiçək xanım Əmiraslanovanın tədbirə oğlunun cənazəsi üzərinə sərilmiş bayraqla gəlməsi və bu bayrağın tezliklə işğaldan azad ediləcək torpaqlarımızda dalğalanacağına böyük ümidlər bəsləməsi toplaşanlarda duyğulu anlar yaşadıb.





El ağsaqqalı Əhməd Məmmədov xalq ilə ordunun möhkəm və sarsılmaz birliyindən, eləcə də xalqın bir bayraq altında, bir amal uğrunda, Ali Baş Komandanın əmrlərinə müntəzir olduqlarını izləməkdən böyük iftixar hissi keçirdiyini vurğulayıb.

Ağcabədi rayon icra başçısı Şahin Məmmədov əvvəlcə Prezidentin sərəncamı ilə yaradılmış Silahlı Qüvvələrin Yardım Fondunun siyahısında adı neçə illərdir ki, birinci sırada gedən Ağcabədi rayonunun ictimaiyyətinə minnətdarlığını bildirib və ağcabədililərin bundan sonra da ulu öndər Heydər Əliyevin ideyalarına sadiq olaraq Azərbaycanın ərazi bütövlüyünün təmin olunması naminə səylərini əsirgəməyəcəklərini, yenə də hərbi vətənpərvərlik işinin rayonda prioritet məsələ olacağını, ağcabədililərin Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bundan sonra da Vətənə, xalqa, dövlətə, orduya sonsuz sədaqət nümunələri göstərəcəklərini qeyd edib.

Toplantı başa çatsa da, Heydər Əliyev parkında səsləndirilən vətənpərvərlik mahnı və marşlarının sədaları hələ də ətrafa yayılırdı.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Mənəvi-psixoloji hazırlıq diqqət mərkəzində





***Əlahiddə Ümumqoşun Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da artırılması və hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi istiqamətində daim məqsədyönlü tədbirlər həyata keçirilir. Bu tədbirlərin davamı olaraq, birləşmə və hərbi hissələrin şəxsi heyətlə iş üzrə zabitləri, psixoloq və klub rəisləri ilə "Döyüş əməliyyatları zamanı mənəvi-psixoloji təminatın qüvvə və vasitələrinin çöl şəraitinə çıxarılması, fəaliyyəti və ictimaiyyətlə qarşılıqlı əlaqədə mədəni-kütləvi tədbirlərin təşkili metodikası" mövzusunda nümayiş-məşğələ keçirilib.***

Söhbət zamanı Əlahiddə Ümumqoşun Ordunun mənəvi-psixoloji təminat şöbəsinin rəisi polkovnik Mirqiyas Rüstəmov bildirdi ki, nümayiş-məşğələnin keçirilməsində əsas məqsəd birləşmə və hərbi hissələrin şəxsi heyətlə iş üzrə zabitlərinə, psixoloq və klub rəislərinə döyüş əməliyyatları zamanı mənəvi-psixoloji təminatın qüvvə və vasitələrinin çöl şəraitinə çıxarılması qaydalarını bir daha əyani surətdə göstərməkdir. "Şəxsi heyətlə iş üzrə hər bir zabit bilməlidir ki, döyüş əməliyyatları vaxtı harada nə zaman, hansı şəraitdə, hansı tədbiri, hansı qüvvə və vasitələrlə necə təşkil edəcək. Bundan başqa, nümayiş-məşğələ inzibati ərazidə yerləşən yerli icra hakimiyyəti orqanları ilə birgə fəaliyyət üsulları, eləcə də mənəvi-psixoloji təminatın qüvvə və vasitələrinin tərkib hissələri haqqında əməli biliklər də diqqətə çatdırılıb".

Məşğələdə döyüş əməliyyatları zamanı mənəvi-psixoloji hazırlıq məntəqəsinin harada, hansı qüvvə ilə necə təşkil olunması əməli surətdə göstərilib. Səyyar hərbi ideoloji məntəqənin, psixoloji kömək və bərpa, hüquq məsləhət məntəqələrinin, səyyar guşənin, səhra şəraitində klubun təşkili və fəaliyyəti haqqında ətraflı məlumat verilib. İnzibati ərazidə yerləşən yerli icra hakimiyyəti orqanı ilə birgə yaradılmış təşviqat qrupunun fəaliyyətinə də baxış keçirilib.

Çöl şəraitində keçirilən nümayiş-məşğələdə mənəvi-psixoloji təminatın müasir döyüş əməliyyatlarının ən mühüm tərkib hissəsi kimi inkişafı, rolu və əhəmiyyətinin vacibliyi öz təsdiqini bir daha tapıb.

Şəxsi heyətin döyüş bacarığının gündən-günə gücləndirilməsi və mənəvi-psixoloji hazırlığın daha da yüksəldilməsi işi daim diqqət mərkəzindədir. Çünki mənəvi-psixoloji cəhətdən hazırlıqlı hərbi qulluqçu yüksək mənəvi ruha, psixoloji gərginliyi dəf etməyə və fiziki cəhətdən dözümlü olmağa qadirdir. Həm də o, düşmənə qarşı fədakarlıqla döyüşən, əsas qüvvələrdən ayrı düşdükdə belə, iradəli olan, qələbə əzmini itirməyən, soyuqqanlı, şüurlu və düşüncəli fəaliyyət göstərməklə düşməni məhv etmək qabiliyyətinə malik olur. Belə hərtərəfli hazırlıqlı əsgər isə döyüşdə asanlıqla qələbə qazanır.

**"Azərbaycan Ordusu"**

# "Sən qalib gələcəksən"



***Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən təlim Komanda Qərargah Hərbi Oyunlarında təlim döyüş tapşırıqları üzrə fəaliyyət göstərən şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilir.***

Bu məqsədlə Beyləqan Qarnizonunda hərbi ideoloji qərargahlar, psixoloji yardım və bərpa məntəqələri açılıb, eləcə də yerli mədəniyyət evi kollektivinin iştirakı ilə "Sən qalib gələcəksən" devizi altında hərbi vətənpərvərlik mövzusunda tədbirlər keçirilib.

Mərasimlər əvvəlcə təlimlərdə iştirak etmək üçün ehtiyatdan çağırılmış gənclər qarşısında, sonra isə çöl şəraitində bilavasitə cəmləşmə rayonlarında və mövqelərdə təşkil olunaraq şəxsi heyətə döyüş əzmi aşılayan bədii kompozisiyalar nümayiş etdirilməsi ilə davam edib.



Yerli hakimiyyət nümayəndələrindən Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, Beyləqan taborunun keçmiş komandiri Akif Həsənov və digər Qarabağ müharibəsi veteranları şəxsi heyət qarşısında çıxış edərək onları qələbəyə səsləyiblər.

Tədbirlər hərbi qulluqçular tərəfindən böyük rəğbətlə qarşılanıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Xəbərlər:
## hadisələr, faktlar

### Misir təhlükəsizlik qüvvələrinin turistlərə atəş açması nəticəsində 12 nəfər ölüb



Misir təhlükəsizlik qüvvələrinin turistlərin olduğu nəqliyyat vasitələrinə terrorist zənn edərək səhvən atəş açması nəticəsində 12 nəfər ölüb, 10-u isə yaralanıb.

Misirin Daxili İşlər Nazirliyindən edilən şərhdə Qərb Səhranın Vahat bölgəsində 4 avtomobilə təhlükəsizlik qüvvələrinin müdaxiləsi nəticəsində 12 nəfərin öldüyü, 10-nun isə yaralandığı bildirilir. "Təhlükəli bölgə"də edilən müdaxilədə ölən və yaralananların Meksika və Misir vətəndaşları olduğu qeyd edilib.

Ölü və yaralılar içərisində neçəsinin meksikalı olduğuna dair isə məlumat verilməyib.

### Məkkənin Əl-Haram məscidində baş verən hadisədə ölən türk zəvvarlarının sayı 8-ə çatıb



Səudiyyə Ərəbistanının Məkkə şəhərindəki Əl-Haram məscidində inşaat kranının aşması nəticəsində baş verən hadisədə ölən türk zəvvarlarının sayı 8-ə çatıb.

Bu barədə Türkiyənin Dəyanət İşləri İdarəsindən məlumat verilib. Bildirilib ki, əvvəldən açıqlanan 7 nəfərdən başqa Belçikadan Məkkəyə gedən Türkiyə vətəndaşı Mehmet Değer də hadisə nəticəsində həlak olub. Bununla da hadisədə ölən türk zəvvarlarının sayı 8-ə çatıb.

İnşaat kranının aşması nəticəsində ümumilikdə 107 nəfərin öldüyü, 238-nin isə yaralandığı açıqlanmışdı.

### Pakistanda törədilən partlayışda 10 nəfər ölüb, 40-dan çox adam yaralanıb



Pakistanın Multan şəhərində törədilən partlayışda ilkin məlumatlara görə 10 nəfər ölüb, 40-dan çox adam yaralanıb. Hadisə ölkənin Pəncab əyalətinin Multan şəhərinin şəhərlərarası avtobus terminalı yaxınlığındakı Vahari meydanında baş verib. Şahidlərin dediklərinə görə, hadisə partlayıcı yüklü bir motosikletin üç təkərli nəqliyyat vasitəsilə toqquşması nəticəsində meydana gəlib.

Partlayışın başvermə səbəbləri barədə hələ ki, rəsmi məlumat verilməyib.

### "Taliban" hərəkatının üzvləri həbsxanaya hücum edərək yüzlərlə məhbusu azadlığa buraxıb



Yerli polisin məlumatına görə, Əfqanıstanın Qəzni şəhərində həbsxanaya hücum edən "Taliban" hərəkatının üzvləri bir neçə yüz məhbusu azadlığa buraxıb.

Hərəkatın nümayəndəsi hadisə nəticəsində 40 mühafizəçinin öldürüldüyünü, 400-dək məhbusun isə azad edildiyini deyib.

Əfqanıstan hökuməti 350 məhbusun qaçdığını təsdiqləsə də, həbsxana əməkdaşları arasında itkilərin sayı barədə məlumat verməyib.

BMT-nin məlumatına əsasən, bu ilin birinci yarısında Əfqanıstanda hərbi əməliyyatlar nəticəsində həlak olan dinc sakinlərin sayı 1,5 min nəfəri keçib, 3,3 min nəfərdən çox insan isə xəsarət alıb.

### "Google" və "Twitter" xəbərlər xidməti yaradır




"Google" və "Twitter" şirkətləri xəbərlər xidmətinin yaradılması üçün səylərini birləşdirəcək. Layihənin əsas fərqləndirici cəhəti açıq çıxış kodlarından istifadədir.

"İnstant Articles" (Dərhal yazılan məqalələr) adlanacaq xidmətin köməyi ilə naşirlər materialları iki internet şirkətinin servislərindən istifadə edən mobil qurğularda göstərə biləcəklər. Yeni xidmətin payızda kiçik naşirlər qrupunun iştirakı ilə sınaqları planlaşdırılır. Layihənin "Facebook", "Apple" və "Snapchat" şirkətlərinin istifadəyə verməyə hazırlaşdığı analoji servislərlə rəqabət aparacağı gözlənilir.

### Yaponiyanın Baş naziri daşqınlardan zərər çəkmiş Zyoşo şəhərinə səfər edib



Yaponiyanın Baş naziri Şinzo Abe Tokionun şimalında leysan yağışlar nəticəsində daşqınlardan zərər çəkmiş İbaraki prefekturasının Zyoşo şəhərinə səfər edib. Burada yerli sakinlərlə görüşən Baş nazir bildirib ki, hökumət itkin düşənlərin tapılması və kənar aləmlə əlaqəsi kəsilmiş şəhərdə normal həyata qayıtması üçün mümkün olan hər şeyi edəcək.

Ş.Abe, həmçinin qeyd edib ki, hələ də yerli sakinlərin bir çoxu ilə əlaqə yoxdur və hökumət axtarış-xilasetmə işlərinin genişləndirilməsi üçün mümkün olan bütün addımları atacaq. Müvafiq qurumların rəhbərləri əraziyə lazım olan qədər polis, yanğınsöndürən və Sahil Mühafizəsinin əməkdaşlarının göndərilməsini təmin edəcək.

### Avstraliyanın iki naziri Baş nazirdən istefa verməsini xahiş edib



Avqustun 14-də Avstraliyanın iki naziri Baş nazir Toni Ebbotdan istefa verməsini xahiş edib.

Yerli kütləvi informasiya vasitələrinin verdiyi məlumata görə, Baş nazirə bu barədə xahişlə xarici işlər naziri Culi Bişop və rabitə naziri Malkolm Ternbull müraciət ediblər.

M.Ternbull jurnalistlərə bildirib ki, Baş nazir ölkəyə lazım olan iqtisadi siyasəti həyata keçirə bilmir. T.Ebbot ölkədə biznesin inkişafına lazım olan iqtisadi inamı yaratmaq iqtidarında deyil. Rabitə naziri ölkəyə başqa rəhbərin lazım olduğunu vurğulayıb.

KİV-lərin verdiyi məlumata görə, M.Ternbull T.Ebbotun əsas rəqibidir və bu gün parlamentin binasında keçiriləcək mətbuat konfransının da təşəbbüskarı məhz odur.

**AZƏRTAC-ın materialları əsasında**

Hərbi təhsil

# İslahatlar hərbi təhsili də əhatə edir

__Ümummilli lider Heydər ƏLİYEV:__

*Özünü hərbi peşəyə həsr edən hər bir gənc anlamalıdır: bu peşəyə özünü nə üçün həsr edir? Çünki hərbi peşə başqa peşələrə nisbətən asan deyil, çətindir. Nə üçün həsr edir? Deməli, Vətəni qorumaq üçün, öz dövlətini, öz millətini qorumaq üçün! Hesab edirəm ki, hərbi təhsil alıb orduda xidmət etmək istəyən gəncin əsas məqsədi budur. Əgər siz hamınız həqiqətən bu məqsədi nəzərə alaraq özünüzü hərbi peşəyə həsr etmək istəyirsinizsə və hərbi məktəbə daxil olub ali hərbi təhsil almaq, bizim orduda, Silahlı Qüvvələrdə xidmət etmək istəyirsinizsə, deməli siz sağlam mənəviyyata malik olmalısınız.*



Bu müqəddəs vəzifə Silahlı Qüvvələrimizi zabit kadrları ilə komplektləşdirən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində də böyük məsuliyyətlə yerinə yetirilir. Kursantların hərbi biliklərə,



milli-mənəvi dəyərlərimizə mükəmməl yiyələnmələri istiqamətində görülən işlər Heydər Əliyevin fikirlərinin reallaşdığını təsdiqləyir. Məzunlar hərbi hissələrdə hərbi xidməti nizamnamələrin tələblərinə müvafiq qurur, əsgərlərin bu və ya digər hərbi texnikanın, silahın istismar xüsusiyyətlərini mükəmməl öyrənməsini təmin edirlər.

Məktəb rəisinin müavini polkovnik Mübariz Rzayevdən öyrənirik ki, məktəbdə 17 kafedra fəaliyyət göstərir. Silahlı Qüvvələrimizdə aparılan islahatların şəbəkəsi genişdir. Ordunun döyüş hazırlığının artırılması şərtlərindən biri də, təbii ki, zabit kadrları hazırlığıdır. Məhz bunun nəticəsidir ki, Müdafiə nazirinin və baş qərargah rəisinin sərəncamlarına müvafiq olaraq təhsil proqram-ları yeni formatda hazırlanıb. Belə ki, kursantların hərbi fənlərə dərindən yiyələnmələri üçün çöl-tədris fənləri artırılıb. Praktiki dərslərə, bu sıradan atışlara daha geniş yer verilir. Bunlar 2014-2015-ci tədris ilində öz müsbət nəticələrini verdi. Yeri gəlmişkən, kursantların çöl-tədris fənlərinə böyük marağı hərb işinə sonsuz sevginin təsdiqidir, şübhəsiz.

Məktəbdə yeni tədris ili ərəfəsində cari təmir işləri aparılıb, bir tədris korpusu və bir yataqxana əsaslı təmir edilib ki, bu da tədrisin keyfiyyətinin yüksəldilməsində vəsilə olacaqdır. Yeni yeməkxana binasının tikintisi başa çatmaq üzrədir.

Polkovnik Arzu İsmayılov bildirir ki, məktəbdə işləyən müəllimlərin 60 faizinin elmi dərəcəsi var. Yüksək tədris bazasına malik olan Ali Hərbi Məktəbdə kursantlar elmi işə böyük maraq göstərirlər. Onlar kursant elmi cəmiyyətində professorların, müəllimlərin, zabitlərin rəhbərliyi ilə müxtəlif mövzuları araş-dırır, kifayət qədər maraqlı elmi nəticələr əldə edirlər; respublika miqyaslı elmi konfranslarda onların elmi işləri də maraqla qarşılanır, mükafatlandırılır. Elmi araşdırmalar, əsasən, təbiət elmləri, texniki elmlər, humanitar elmlər, informatika üzrə aparılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq fərmanı ilə tam artilleriya generalı Əlağa Şıxlinskinin anadan olmasının 150 illiyi respublikamızda böyük təntənə ilə qeyd edildi. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi də bu tədbirdə fəal iştirak etdi. Belə ki, "General Əlağa Şıxlinski haqqında nə bilirik?" viktorinasında 50-dən çox kursant təxəyyülü, faktları ümumiləşdirmə qabiliyyəti ilə maraqlı yazılar hazırladı. Onların bu mövzuya olduqca böyük marağı neçə-neçə elmi-publisistik məqalə ilə nəticələndi.

Ötən ilin noyabrında "Heydər Əliyev Mərkəzi"nin keçirdiyi "Heydər Əliyev və Azərbaycan tarixi" mövzusunda universitetlərarası bilik yarışmasında H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları da iştirak ediblər. Başlıca məqsədi Heydər Əliyevin həyatının və irsinin dərindən öyrənilməsi və təbliği olan bu tədbirdə 44 ali təhsil müəssisəsi arasında 5-ci yer, təbii ki, kursantların təxəyyülünün səviyyəsinin göstəricisidir.

Polkovnik-leytenant Mikayıl Hüseynov deyir ki, məktəbdə kursantların mənəvi-psixoloji hazırlığı həmişə diqqət mərkəzində olub. Kursantların dünyaduyumunu istər istiqamətlər, istərsə də məzmun etibarilə dərinləşdirmək, məqsədyönlü şəkildə formalaşdırmaq üçün müxtəlif tədbirlər həyata keçirilir. Başlıca diqqət vətənpərvərlik duyğularının pərvərişinə yönəldilir. Bu məqsədlə alimlərlə, şair və yazıçılarla keçirilən görüşlər, təbii ki, təsirsiz olmur. Cari tədris ilində də vətənpərvərlik duyğuları aşılayan tədbirlər müntəzəm keçiriləcəkdir...

Xırdaca-xırdaca əsən meh bürkünü yumşalda bilmir. Əslində, nə bürküyə məhəl qoyan var, nə də əsən mehi hiss eləyən. Hamı bir tədbirin



işığına tələsir: Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuş kursantların andiçmə mərasimi olacaq. Nəzarət-buraxılış məntəqəsinin qarşısında kələləşənlərdən birinin dedikləri düşüncələrimin "qırışığını açır":

- Qarabağda döyüşənlərin sırasına qatılmağa sağlamlığım imkan vermədi. Oğlumun hərbi paltar geyinəcəyi günü intizarla gözləyirdim. Hərbi paltar geyinmək öz yerində, oğlum hərbçi olur. Mənə qismət olmayan taleni oğlum yaşayacaq. Bu gün mənə həm təsəlli, həm də niyyət, muraz günü kimi əzizdir...

O atanın kimliyini biləmmədim. Bildiyim bu oldu ki, atalar Vətənə layiqli oğullar böyüdüb. Ordumuzun sabahları yüksək mənəvi dəyərləri yaşadacaq oğulların adına ad olacaq. Belə oğul atası, təbii ki, belə bir gündə nə bürkünü hiss eləyəcək, nə də bürkünü "yumşaldası" mehi...

10-12 yaşlı bir uşaq atasını tədbirə tələsdirir. Bu fidan maraqlar istəyə çevriləcək, illəri ömürləşdirəsi arzu olacaq. Və bu gün qardaşını hərbi mundirdə görməyə tələsən o uşaq bir neçə ildən sonra hərbi and içəcəyi məqama tələsəcək. Düşüncələrim belə deyir və bu düşüncələrə görə o uşağı bağrıma basmaq istəyirəm...

Tədbir başlayır.

Ümummilli liderimiz Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edilir...

Dövlət himnimiz bir azdan hərbi and içəcək kursantları da, məktəbin zabitlərini də, tədbirdə iştirak edən valideynləri də duyğulandırır. Hərbi səhra paltarı geyinmiş 4-5 yaşlı uşaq himnimizi o qədər sevgilərlə, o qədər həvəslə ifa edir ki! O uşağın ürəyindən boylanan istək aydınlığıyla görünür...

Kursantlar hərbi and içir...

Məktəbin rəisi polkovnik Füzuli Salahov kursantları təbrik edir:

- Silahlı Qüvvələrimizdə aparılan ciddi islahatlar Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində də uğurla həyata keçirilir. Bu günlərdə keçirilən Komanda Qərargah Hərbi Oyunlara şəxsi heyətin yüksək peşə hazırlığı nümayiş etdirməsindən qürur duyuruq. Silahlı Qüvvələrimizi zabit kadrları ilə komplektləşdirən məktəbimiz olduqca əhəmiyyətli və məsuliyyətli vəzifələr yerinə yetirir. Bu vəzifələrin uğurla həyata keçirilməsi zabitlərimizin peşəkarlığından, professorların, müəllimlərin elmi-pedaqoji potensialından, əsl vətəndaş məsuliyyətindən, hərbçi kadrların hazırlanması kimi olduqca vacib bir işin icrasına yüksək münasibətindən asılıdır.

Belə əlamətdar bir gündə hərbçi peşəsinin çox şərəfli peşə olduğunu bir daha xatırladır, ömrünü dövlətçiliyimizə həsr etməyə and içən kursantları təbrik edir, onlara nümunəvi xidmət, can sağlığı arzulayıram. İnanıram ki, onlar hərbi bilikləri mükəmməl öyrənəcək, hərbi nizamnamələrin, komandirlərin, zabitlərin əmr və tələblərinə ciddi əməl edəcək, müəllimlərin tövsiyələrini, göstərişlərini Ali Baş Komandanın, Müdafiə nazirinin arzuladığı səviyyədə yerinə yetirəcəklər.

Çıxışında oğlunun hərbçi olacağından qürurlandığını qeyd edən kursant atası Azər Bayramov deyir ki, torpaqlarımız işğaldan azad edilənə kimi biz mülkilər də özümüzü hərbçi bilməliyik. Ali Baş Komandanın əmrinə hərbçilər kimi biz də hazırıq. Belə bir vaxtda kursantların daha intizamlı olacağına, komandirlərin, müəllimlərin tələblərinə, məsləhətlərinə məsuliyyətlə yanaşacaqlarına, yüksək peşə hazırlığına malik zabit olmaq üçün elmləri böyük həvəslə, istəklərlə öyrənəcəklərinə inanırıq.

Kursant Novruz Əsədovun dedikləri kursant atasının dediklərinin məntiqi davamı təsirindədi:

- ...komandirlərin, zabitlərin əmr və tələblərinə sözsüz əməl edəcək, intizamlı olacaq, fənləri böyük məsuliyyətlə öyrənəcəyik...

Kursantların təntənəli keçidindən nə gözlər doyur, nə də könüllər. Tanımışdımı, tanımamışdımı, bir ananın pıçıltısı eşidənləri duyğulandırır: "Boyuna qurban olum, ay oğul!.." Ananın öz oğluna ünvanladığı kəlmələrdən kursantların hamısına pay düşür.

Bir bacının qoşa qolları qardaşının kürəyində çarpazlaşıb...

...Xırdaca-xırdaca əsən meh ağacların yarpaqlarında qərar tuta bilmir...

Bürkü yumşalıb. Onsuz da kimsə bürkünü hiss eləmirdi...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# "Bilik günü"ndə andiçmə mərasimi

***Cəmşid Naxçıvanski adına Hərbi Liseyin şərəfli tarixi var. Yaradıcısı ulu öndər Heydər Əliyev olan bu hərbi məktəb müasir Azərbaycan Silahlı Qüvvələrinin zabit heyəti ilə komplektləşdirilməsində və yüksək ixtisaslı kadr potensialı ilə təmin olunmasında ilkin baza rolunu oynayır.***

Ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətə gəldiyi ilk vaxtlarda - 1971-ci ilin aprelində gənclərimizin hərbi peşələrə hazırlanması barədə xüsusi sərəncam imzalamışdı. Həmin il iyunun 20-də ordunun kadr hazırlığında əsas baza rolunu oynayacaq ixtisaslaşdırılmış hərbi məktəbin bünövrəsi qoyuldu və həmin məktəbə xalqımızın görkəmli sərkərdələrindən biri, 1937-1938-ci illərdə "qırmızı terror"un qurbanı olan Cəmşid Naxçıvanskinin adı verildi. Yaradıldığı zamandan 40 ildən artıq müddət keçsə də, bu hərbi məktəb tarixin hər məqamında öz nüfuzunu saxlamış, Azərbaycan hərb tarixinə şanlı səhifələr yazmış bu hərbi məktəb hər zaman ordumuzun fəxr, qürur mənbəyi olub. Bu gün milli ordumuzun zabit heyətinin əsasını məhz C.Naxçıvanski adına Hərbi Liseyin məzunları təşkil edir. Onların 8 nəfəri "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. 100 nəfərdən çoxu orden və medallarla təltif olunub. Liseyin məzunları arasında müxtəlif qoşun növləri və digər güc strukturları üzrə onlarla general və admiral, yüzlərlə yüksək rütbəli zabit yetişib. Azərbaycan Silahlı Qüvvələrində hərbi təhsil sisteminin daha da təkmilləşdirilməsi məqsədi ilə aparılan uğurlu işlərdən biri də 1996-cı ildə C.Naxçıvanski adına məktəbin bazasında hərbi liseyin yaranması və Naxçıvan Muxtar Respublikasında C.Naxçıvanski adına Hərbi Liseyin filialının açılması oldu.



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 5 aprel 2014-cü il tarixli müvafiq əmrinə əsasən, "19 aprel C.Naxçıvanski adına hərbi lisey günü" elan edilib.

C.Naxçıvanski adına Hərbi Liseydə "Bilik günü"nə və liseyə qəbul olunmuş kursantların andiçmə mərasiminə həsr olunmuş tədbir keçirilib.

Təntənəli mərasimdə Hərbi Liseyin döyüş bayrağı meydana gətirilib. Mərasim iştirakçıları ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirildikdən sonra tədbir açıq elan olunub.

Hərbi Liseyin rəisi polkovnik Rüfət Əmirov mərasim iştirakçılarını,kursantların valideynlərini bu əlamətdar gün münasibəti ilə təbrik edərək liseydə kursantların yüksək səviyyədə təhsil almaları üçün hər cür şəraitin yaradıldığını diqqətə çatdırıb, onların qəbul edəcəkləri şərəf andına sadiq qalacaqlarına, Vətənimiz üçün layiqli vətəndaş, ordumuz üçün vətənpərvər zabit olacaqlarına əminliyini vurğulayıb:





- Çalışın təhsil aldığınız müddət ərzində içdiyiniz şərəf andını, şərəf və namus anlayışını hər şeydən, hər zaman üstün tutasınız, doğruluq və dürüstlükdən ayrılmayasınız. Siz də gələcəkdə ali hərbi təhsil alaraq ordu sıralarında məsuliyyətlə, hərbi nizamnamələrin tələblərinə uyğun xidmət edəcəksiniz.

Liseyin rəisi polkovnik Rüfət Əmirov çıxışını kursantlara müraciətlə bitirib.

Müəllimlər adından çıxış edən Laləzər Həsənova kursantlara xoş arzularını çatdırıb, onların təhsildə nailiyyətlər qazanması üçün var qüvvə ilə çalışacaqlarına əmin olduğunu qeyd edib.

Kursant valideyni Ləman Abdullayeva çıxışında liseydə yaradılmış şəraitə görə rəhbərliyə minnətdarlığını bildirib. Sənan Musayev kursantlar adından danışaraq Hərbi Liseydə təhsil alacaqları müddətdə valideynlərinin və lisey rəhbərliyinin ümidlərini doğruldacaqlarına söz verib. Mərasimdə kursantların şərəf andını təntənəli şəkildə qəbul etmələrindən sonra xidməti vəzifələrini layiqincə yerinə yetirən hərbi qulluqçuların və müəllimlərin təltif olunması haqqında əmrlər şəxsi heyətə çatdırılıb.

Hərbi Liseyin rəisi polkovnik Rüfət Əmirov mükafatları təqdim edib.

Mərasim şəxsi heyətin "Naxçıvanskilər" marşının sədaları altında təntənəli keçidlə davam edib.

Tədbirin sonunda kursant valideynləri ilə Hərbi Lisey rəhbərliyinin görüşü olub. Görüşdə valideynləri maraqlandıran suallara cavablar verilib və Hərbi Liseyin fəaliyyət istiqamətləri haqqında ətraflı məlumatlar diqqətə çatdırılıb. Valideynlər kursantların yataqxana və qidalanma şəraiti ilə yaxından tanış olublar.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 781
Nüsxə 4710